Zaur USTAC

# İSTƏMƏZDİM,
# ŞAİR OLUM
# HƏLƏ MƏN...

Bakı – 2018

Zaur USTAC

"İSTƏMƏZDİM, ŞAİR OLUM HƏLƏ MƏN..." EK

Bakı, "USTAC.AZ" nəşrləri, 2018, 72 səh.

Kod: EK-002 -04- MZM-14 -20-18

*Elektron Kitab Zaur Ustac yaradıcılığının "30" illik yubley tədbirləri çərçivəsində nəşr olunur. Bu kitab müəllifin ənənəvi qydada 2010 – cu ildə nəşr olunmuş eyni adlı kitabının elektron variantıdır. Kitabda şairin 1990 – 1991- ci illərdə qələmə aldığı şeirlər yer almışdır. (Y-30-EK-02-ZU)*

*Müəllifin yeniyetməlik çağlarında yazdığı bu şeirlər sözün əsl mənasında çox maraqlıdır, - oxuduqca şeirdən-şeirə zamanın necə axmasını, vaxtın dəyişməsini hiss edirsən. Olduqca səmimi və orijinal şeirlərdir...*

İSBN: 978-9952-8298-9-1b

© Zaur USTAC, 2018.

# ON DÖRDÜNCÜ YAZI

# QƏLƏM HAQQI VƏ YA MÜRƏKKƏB PULU

## (HESABAT)

Salam, dəyərli oxucum... Uca Yaradana şükürlər olsun ki, Bizə qarşı çox səxavətlidir və hər dəfə Sizinlə yeni görüşə gələndə bu şükrü-sənanı qeyd etməyi özümə borc bilirəm. Hər yaşadığımız an üçün şükürlər olsun... Min şükür... Mətləbə keçməzdən əvvəl onu qeyd edim ki, nə qədər çalışsam da yenə yazıma bir sözdən ibarət ad seçə bilmədim... Söz addan düşmüşkən, artıq ad öz-özlüyündə oxucuya söhbətin nədən gedəcəyi barədə ipucu verir. Necə deyərlər əldə qələm 30 – a gəlib çatdıq.

2018 – ci ilin Mayın 24 –də ilk yazımın rəsmi şəkildə mətbu orqanda işıq üzü görməsinin 30 ili tamam olur. 24 May 1988 – ci il "Əməyə məhəbbət" adlı məqaləm, Ağdamda nəşr olunan "Lenin yolu" (sonralar "Ağdam") qəzetinin 62-ci (7194) sayında, 4-cü səhifəsində dərc edilib. ("OTUZ İLDİR ƏLDƏ QƏLƏM" adlı kitabın üz qabığına çıxarılmış foto - cild "Ağdam" qəzetinin Zaur Ustacın şəxsi arxivində saxlanılan həmin bu nömrəsindən istifadə olunaraq hazırlanmışdır.) Və ilk qələm haqqımı deyim, mürəkkəb pulumu deyim - qonorar - aldığım vaxtdan 30 il keçir... Təfsilata keçmədən sadəcə onu qeyd etməyi özümə borc bilirəm ki,

həqiqətən də çox keşməkeşli bir həyat yaşamaq qismət oldu Bizlərə...

Sözüsüzki, yaradıcılığımız həyatımızın inkası olduğundan – "qabda nə var çıxar üzə" (Z.U)- bu anlamda mən nəzmi deyil, məhz nəsri nəzərdə tuturam ... Yaşadıqlarımız yazdıqlarımıza çox təsir edir. Hətta, yəqin ki, yaşadıqlarımız yazdıqlarımızı yaradır... Yəni, belə uzun və keşməkeşli bir zamanın müqabilində Biz heç nə yazmamışıq... Adları qoyulmuş, içəriyi də məlum sayı 10 –dan artıq kitab – roman, povest və hekayələr – yazılacağı günü gözləyir... Və gözləyə-gözləyə zənginləşir, dərinləşir, vacibləşir... Yəqin elə buna görədir ki, kəlmələr kağız üzərinə köçməyə tələsmir, hələ bir az da qələmə naz edirlər... Nəsə, yazılmamışları qoyaq bir kənara, keçək yazılmışlara... 30 il əvvəl bir məktəbli məqaləsi ilə başlayan sərgüzəştlərim Uca Yaradanın izni ilə davam etməkdədir və inanıram ki, istədiklərimin hamısını yazıb Sizlərin ixtiyarına verməyə vaxtım olacaq. Bu günə qədər yazdıqlarımdan işıq üzü görən kitablarım aşağıdakılardır:

"GÜNAYDIN" ("AĞÇİÇƏYİM") Bakı - 2010. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

"İSTƏMƏZDİM ŞAİR OLUM HƏLƏ MƏN" Bakı - 2010. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

"GÜLZAR" Bakı - 2011. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var. )

"MUM KİMİ YUMŞALANDA" Bakı - 2011. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.)

"MƏHDUD HƏYATIN MƏCHUL DÜŞÜNCƏLƏRİ" Bakı - 2011. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.)

"ŞEHÇİÇƏYİM" Bakı -2011. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

"BALÇİÇƏYİM" Bakı - 2012. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var. )

"BƏRZƏXDƏ" Bakı - 2014. (Bu günə qədər bir dəfə nəşr olunub)

"NİŞANGAH" Bakı - 2016. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.)

"ORİYENTİR ULDUZU" Bkı -2011. (Bu günə qədər beş dəfə nəşr olunub və elektron variantı var.)

"GÜLÜNÜN ŞEİRLƏRİ" Bakı - 2011. (Bu günə qədər üç dəfə nəşr olunub və elektron variantı var.)

"SEVİN Kİ, SEVİLƏSİZ" Bakı - 2014. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

"BAYATILAR" - " بایاتیلار " زائـــور اوستاج - Bakı - 2014. (Bu günə qədər iki əlifba ilə üç dəfə nəşr olunub və elektron variantı var. Təbrizdə yayımlanıb.)

"QƏLBİMİN AÇIQCASI" Bakı - 2016. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

"USTADNAMƏ" Bakı - 2016. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

"USUBCAN ƏFSANƏSİ" (MƏQALƏLƏR) Bakı - 2017. (Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

"ÇƏHRAYI KİTAB" Bakı – 2017. (Bu günə qədər iki dəfə nəşr olunub və elektron variantı var.)

"OTUZ İLDİR ƏLDƏ QƏLƏM" Bakı – 2018.

(Bu günə qədər bir dəfə nəşr olunub və elektron variantı var.)

YANDIRILMIŞ (LƏĞV OLUNMUŞ) KİTABLAR:

"93 – ün yayı və ya bir qaşıq qatıq", Roman, Bakı – 2011. (Bərpa olunacaq.)

"2016", Povest, Bakı – 2011. (Bərpa olunacaq.)

Yuxarıda sadalanan müəllifi olduğum kitablardan əlavə, dostların məsləhət bilib daxil etdikləri bir-neçə antologiya, toplularda da yer almışam ki, onlardan Mənə məlum olanları bunlardır:

“ZİRVƏ” antologiyası. Bakı – 2017. (Sona xanıma və Vüsal bəyə təşəkkürlər.)

“RUHUMUZUN TURAN ƏTRİ” “Dədə Qorqud” kitabxanası seriyasından. Bakı – 2017. (Balayar müəllimə, Sabir müəllimə, Mehman müəllimə təşəkkürlər.)

“MƏQAM” Toplu. Bakı – 2017. (Hacıxanım Aidaya təşəkkürlər.)

ASKEF-in yayımladığı “KARABAĞD’AN, KERKÜK’DEN ÇANAKKALE’YE” (şiir seçkisi) antologiyası. Türkiye– 2017. (Günel xanıma, Sayman Aruz bəyə, Sona xanıma və Savaş Ünal bəyə təşəkkürlər.)

Bu günə qədər ənənəvi qaydada nəşr olunmuş bütün kitablarımın elektron variantları var. Hamı üçün tam pulsuz və təhlükəsiz əlçatanlığı təmin etmək məqsədi ilə yaradıcılığın 30 iliyi yubley tədbirləri çərçivəsində təkrar EK nəsrlər olacaq.

Son illər müntəzəm olaraq, http://yazarlar.az/ , http://ustac.az/ , http://zaurustac.tr.gg/ saytlarında,

“EV BAZARI” yomoristik e-qəzetdə, “MAKLER-VİP” satirik e-jurnalda, “MARALLAR” satirik bloqda yazılarımı yayımlayıram. Bunlardan əlavə istər http://www.tezadlar.az/ saytı olsun, istərsə də ənənəvi qaydada “TƏZADLAR” qəzeti Bizim üçün Ağdamın bir parçasıdır, “AĞDAM” qədər doğmadır.

Onu qeyd etmək istəyirəm ki, istər ənənəvi qaydada qəzet və jurnallarda, istərsə də elektron variantda bütün təkliflərə isti yanaşıram. Heç bir müraciəti cavabsız qoymuram. Eyni zamanda özüm də vacib bildiyim mövzularda yazılarım olanda və şeirlərimi hər iki qayda ilə mətbu orqanlara göndərirəm və yayımlanıram. Əlbətdə, vacib bildiyim mövzularda....

“YARADANLA BAŞ-BAŞA” kitabına daxil olan “QƏLƏM HAQQI VƏ YA MÜRƏKKƏB PULU” (on dördüncü yazı) adlı, hesabat xarakterli bu məqalə "OTUZ İLDİR ƏLDƏ QƏLƏM" kitabında və yubley tədbirləri çərçivəsində Elektron Kitab formatında nəşr olunacaq bütün kitablarda yer alacaq. Ona görə məhz bu yazıda bir məlumatı da açıqlamaq istəyirəm.

Çox düşündüm ki, bu yazılardan, kitablardan başqa nə edə bilərəm... Bilirsiz ki, 2007 – ci ildən fəaliyyət göstərən YAZARLAR.AZ - Yazarlar jurnalının yaranma səbəbi, məqsədi, uşaq və gənclərə dəstək olmaq, ümumiyyətlə yaşından asılı olmayaraq yayımlanmaq problemi olan hər

kəsə yardım etmək olub. Odur ki, yenə həmin ampuladan çıxış edərək, yaradıcılığın 30 illik yubleyi münasibəti ilə "USTAC" Milli Mükafatını təsis etdim. Mükafat diplomdan, nağd puldan və laureatın YAZARLAR.AZ – da yayımlanmış yazılarından ibarət, "Yazarlar" jurnalının xüsusi buraxılışı şəklində, 100 ədəd tirajla – pulsuz, kitabının nəşr olunmasından ibarətdir. Pul mükafatının məbləği bütün dövrlərdə stabil və inflyasiyaya davamlı olması üçün təqdim olunacağı ildə qüvvədə olan Azərbaycan Respublikası Müharibə Veteranın bir aylıq tam müavinəti həcmində nəzərdə tutulur. Pul mükafatı bir dəfə, tam həcimdə ödənilir və qanunamüvafiq olaraq bəxşiş - bağışlama, hədiyyə etmə əsasında olduğuna görə vergidən azaddır. Mükafat ildə bir dəfə, yalnız bir nəfərə 28 May Respublika Günü ərəfəsində - əvvəl, sonuncu Bazar günü – 2019 – cu ildən başlayaraq təqdim olunacaq. Kitab isə növbəti ilin təltifinə qdər çap olunub, laureata təhvil veriləcək. Mükafat barədə ətraflı məlumat YAZARLAR.AZ da elan olunacaq.

Bu arada "AZAD QƏLƏM", "HAQQIN SƏDASI", "ƏDƏBİYYAT" , "TƏZADLAR" qəzetlərinin, "YURD", "ULDUZ", "AZƏRBAYCAN", "KİRPİ", "MOLLA NƏSRƏDDİN XXI ƏSRDƏ", jurnallarının, eləcə də

http://azpress.az/ , http://senet.az/ , http://zaman24.net/

http://www.yazar.in/ , http://take.az/ , http://siirvideo.com/ https://10yazar.wordpress.com/ , https://yazyarat.com/ ,

http://www.tehsilproblemleri.com/, http://ayb.az/

http://azeri.press/ , http://www.tezadlar.az/ ,

saytlarının bütün işçi heyyətlərinə və rəhbərbərlərinə, ölkəmizdə elektron kitabçılığın və kitabxanaçılığın əsasını qoymuş, günümüzdə olduqca zəngin, böyük həcmli e-kitab bazasına malik http://www.kitabxana.net/ saytının qurucusu, bir çox vacib ictimai işlərdə daim öndə fəallığı ilə seçilən, gənclərə həmişə dəstək olan Aydın Xan müəllimə xüsusi təşəkkürlər... Var olasız, Dostlar və əlbətdə, Bizim tanımadığımız digər Qəhrəmanlar ... Kim cəhaləti ortadan qaldırmaq üçün bir kəlmə deyirsə, yazırsa çox xoşbəxt adamdır... Bu əməlin qəlbə verdiyi fərahlıq hissini ikinci bir iş bəxş edə bilməz.... Uğurlarımız bol olsun... Amin... (Amen...)

Düzü, bilmirəm nəsə unutdum ya yox... Ancaq, yazımı yekunlaşdırmaq istəyirəm.

Sağ olun! Var olun! Hamınıza xoş və əyləncəli günlər arzu edirəm! Arada kitab oxumağı da unutmayın!!!! "Mütailə orqanizmin kompleks müalicəsi, sağlam həyat deməkdir...." (Z.U)

02.04.2018. Bakı.

Müəllif: Zaur Ustac ,
© Zaur USTAC,2018. Bakı.

# GÖZÜM QALDI

Hamı özünə yar tapdı,
Mənim gözüm səndə qaldı.

Gözüm qaldı, gözlərində.
Şirin-şirin sözlərində.

Gözüm qaldı, al yanaqda,
Bəstə boyda, bal dodaqda.

Gözüm qaldı, incə beldə,
Qara saçda, ağ sinədə.

Gözüm qaldı, baxışında,
Yerişində, duruşunda...

Mənim dözüm səndə qaldı,
Demək, ürəyim yarıdı.

Yarısı öz canımdadı,
Yarısı səndə qalıbdı.

Gözəl yarım sən incisən,
Həm zərifsən, həm incəsən.

Gözəllikdə tayın yoxdu,
Tərifinin həddi yoxdu.

Ağ buxabda, qara xallar,
Qələm kimi qaşların var.

Saçların var, qulac-qulac,
Ustac olmuş sənə möhtac!!!

1990-Yusifcanlı

ÇAĞIRIŞ

Zaurun ürəyi doludur, dolu.
Azatdır bil, sevgi, məhəbbət yolu.
Uğurlu, uğursuz yollar uzunu
Razı olsan, həmdəmin ollam sənin.

Gözəl günlər yaşayırıq həyatda,
Ürəyimiz birgə vursun həyatda,
Lütüf göstər, gəl birləşək həyatda,
Şən yaşayaq, sirdaşın ollam, sənin.

Əzizim, gəl, bir gün gedək çəmənə,
Nəfis çiçəklərdən dər, tax sinənə,
İncimə, yar, çoxmu getdim dərinə?
Sevirəm de, sevgilin ollam, sənin.

Etiraz etmə, sözümə nə olar,

Vicdanın var?- Bir kəlmə de nə olar...

İncimə yar, incisən də nə olar?

Razı olsan, aşiqin ollam sənin...

1990-Yusifcanlı

## SEVGİLİMİN TƏRİFİ

Əzəl qanunudur, bu, təbiətin,
Sevib, sevilməli oğlan da, qız da
Adətən, oğlanlar seçir qızları,
Mənim də gözlərim, qalıb bir qızda...

O qız, mənim üçün dünyada təkdir,
Ceyrana oxşayır, məsum baxışdan,
Tanrım, paylayırkən gözəllik suyun,
Damcı əskiltməyib, onun payından.

Çox gözəl, çox həssas, nə qədər incə
Misli görünməmiş, bənzər mələyə,
O qədər nazənin, o qədər nəcib,
Onun gözəlliyi gəlmir xəyalə...

Bu qədər də, gözəl olarmı insan?
Baxırsan, can alır qara gözləri,
Ziyadar yanağı, dümağ sinəsi,
Huşu başdan edir şirin sözləri...

Yarım tərbiyəli, ləyaqətlidir,
Hər yoldan ötənə o, canan olmaz,
Aldanıb namərdin şirin sözünə,
Yarım öz aşiqin heç zaman atmaz.

Şerə sığışmayır, yarın tərifi,
Sözlə ifadəyə halı gəlməyir,
Gözəl nişanların dedim yarımın
Lakin gözəlliyi şerə gəlməyir...

1990-Yusifcanlı

# BAXIŞLAR QARŞILAŞANDA

Hər gün rastlaşırıq, bilmirəm nədən,
Bəlkə sevdiyimdən, yox, ondan deyil.
Mən səni sevirəm, yəqin sən məni,
Tanrım görüşdürür, ikimizi bil...

Qarşıma çıxırsan, nədənsə yolda,
Bircə dəfə gül hüsnünə baxanda,
Nədən sən də bu an mənə baxırsan?
Nə olur, baxışlar qarşılaşanda?

Səndən soruşuram, mənə cavab ver,
Niyə karıxıram sənə baxanda,
Yəqin ki, baxışlar toqquşur bu an
Mən sənə, sən mənə dinməz baxanda...

1990-Yusifcanlı

## AYRILIQ

Gözlərim dikilir yoluna sarı,
Canandan bir xəbər, olaydı barı,

Gözlərim yol çəkir, könül intizar
Xəyalım həmişə dağınıq olar.

Tanrım məni bəxtəvərmi yaradıb?
Sənə mən də bir məhəbbət oyadıb...

Bu məhəbbət alovlanır,sönməzdir.
Aşiqinin amalı tək, dönməzdir.

Düzü, yarım məndən yaman uzaqdı.
Əsəri yox, məhəbbətim coşandı...

Əsil aşiq gərək oda qalansın,
Cəfa çəksin, sonra yara calansın...

Uzaqlığın həm də məni coşdurar,
Sənə olan məhəbbətim artırar...

Uzaqlığın əsər etməz eşqimə,
Uzaqlıq güc gəlməz, məhəbbətimə...

Yolumu kəssə də bir çox maneə,
Aramıza girə bilməz, bil heç nə.

Mən səni sevirəm, inan ürəkdən,
Məcnun tək bir yolun yolçusuyam mən...

1990-Yusifcanlı

# İNADINDAN DÖN

Səni görən gözlərim,
Özgəsinə baxarmı?
Onu sevən oğlandan
De görüm qız qaçarmı?

Sevgimizi heç edirsən,
Günah sənin özündədi.
Məni də məyus edirsən,
Bəs, mənim günahım nədi?

1990-Yusifcanlı

## İNCİTMƏ MƏNİ

Ürəyimə ox atan qız,
Ox atıb, yayın gizlətmə.
Ürəyində söz saxlayıb,
Ürəyimi gəl sizlətmə...

1990-Yusifcanlı

# SƏNİ GÖRMƏYƏNDƏ

Səni görməyəndə, halım pozulur,
İnan ki, damarda qanım da donur.

Gözlərim öyrəşib, qara gözlərə,
Qulağım öyrəşib şirin sözlərə.

Bircə gün, görüşə sən gec gələndə,
İnan ki, aşiqin dözmür, bu dərdə.

1990-Yusifcanlı

# SEVƏCƏYƏM

Baxıram, sevgilim necə gözəlsən,
Məncə, gözəllikdə sən lap əzəlsən...

Qaşların çatılıb, bənzəyir yaya,
Kirpiklər ox olub, könlüm ovlaya.

Məni valeh etdi, şirin sözlərin,
Könlümü ovladı qara gözlərin.

Məni aşiq etdi, bircə baxışın,
Axıtma, gözəlim, gözünün yaşın...

Öz yarım, gül, gülmək sənə yaraşır,
Könlüm mənə hər an səndən danışır...

1990-Yusifcanlı

HEYRANAM

Qara, qıvrım saçlarına,
Gül hüsnünə, qaşlarına,
Sözlərinə, matam inan,
Gözlərə olmuşam heyran...

Şirin dilli, bal dodaqlı.
Qara xallı, ağ buxaqlı,
Şux baxışlı, gözəl, aman!
Olmuşam, mən sənə heyran!

1990-Yusifcanlı

# BAXIŞIN  VAR...

O, qara gözlərin öldürür məni,
Gözlərin baxışı yandırır məni.

Baxışından, baxışına fərq var yar,
Hər baxışın mənə bir söz anladar.

Baxışın var, mənə məni sev deyər,
Baxışın var, məni dindirmə deyər.

Baxışın var, canım alır sevgilim,
Baxışın var, deyir:-“baxma sevgilim”...

Baxışın var, məni döyər, incidər.
Baxışın var, məndən incimə deyər.

Baxışın var, mənə sevda çatırar,

Baxışın var, dərdimə dərd artırar.

Baxışlar, baxışlar mənası dərin,

Onlar sözün deyər, siz gözəllərin...

1990- Yusifcanlı

# DÜZÜN BİLMİRƏM

Sən də bir söz söyləmisən,
Deyilənə inanmıram,
Başqasına meyl etmisən,
Bundan bir şey anlamıram...

Deyirlər ki, yarın guya,
Artıq gəzir başqasıyla,
Gecələr baxırlar Aya,
Gündüzlər Günə qanmıram...

Yəni, sən də beləmişsən,
İnanmıram, doğrusu mən,
Sən, Zauru incidərsən?
Bu işdən baş açammıram...

1990-Yusifcanlı

## SƏNƏ NƏ OLUB?

Ətrafa baxıram, sevən, sevilən.
Bir mənim sevgilim məndən inciyib.
O, məndən inciməz, burda nəsə var,
Sözsüz, sevgilimi kimsə öyrədib...

1990-Yusifcanlı

# MƏHƏBBƏT

Məhəbbət, əbədi duyğu,
Duyğuların ən zərifi,
Bu duyğu yaman həssasdır,
Tez duyur, incikliyi...

Məhəbbət, sonsuz ehtiyac,
Ehtiyac, heç vaxt azalmaz...
Həmişə kiməsə möhtac...
Məhəbbətsiz heç nə olmaz!

1990-Yusifcanlı

# SƏNSİZ GÜNLƏRİM

Mən səni sevmişəm lap əzəl günlər,
Sənsiz keçən günlər nəyə gərəkdir?
Yaddaşıma yaxın düşmür o, günlər.
Sənsız keçən anlar qərinələrdir...

Sənin ayrılıgın yandırır mənı,
Cəfasız sevginin mənası nədir?
Aşiqin peşəsi, cəfa çəkməli,
Son qovuşmaqdırsa, əzəl həsrətdir...

Cəfa çəkməyəndən aşiq olarmı?
Sevməyən sevginin qədrin nə bilir.
Meyvəsiz ağacın barı olarmı?
Gərək sevəsənki, biləsən nədir...

1990-Yusifcanlı

# TAMLIQ

Tanrım yaradırkən öz bəndələrin,
Yarıya bölmüşdür insan bədənin.

Biri qız, biri oğlan iki paradır,
Onlar haçansa qovuşmalıdır.

Onlar qovuşmalı, bir tamlıq üçün,
Onlar qovuşmalı xoşbəxtlik üçün.

Təkcə qız, oğlan deyildir belə,
Bülbül də öz meylin salmışdır gülə

1990-Yusifcanlı

# BU NƏ İNADDIR?

Cəmalın bənzər Aya,
Sən də döndün,Günə, Aya
Ay gözəl nə olub sənə?
Daha görünmürsən mənə?

Yetər, bəsdir naz eyləmə,
Qəti sözünü de mənə.
Artıq bəsdi incitdiyin,
Nədəndi, sənin gileyin?

Sən də sevirsən bilirəm,
Məni atmazsan bilirəm,
Belədirsə, naz eyləmə,
Aşiqini gəl incitmə...

1990-Yusifcanlı

# LAL OLURAM

Söylə, səndə nə var, çaşdırır məni?
Nədir bu cazibə, nədir baxışın?
Elə hey cəzb edir, camalın məni,
Ancaq, mane olur mənə baxışın...

İstəyirəm, sənə yaxınlıq edim,
Hərdən səninlə söhbət də edim,
Səni sevdiyimi özünə deyim,
Di gəl, aman vermir, mənə baxışın...

Gəlirəm, baxışın məni dondurur,
Səni görən kimi, huş başdan olur,
İstərəm, söz deyəm, dilim lal olu
Görür öz işini yenə, baxışın...

1990-Yusifcanlı

# BAX

Baxışlar dikilir, düz gözlərimə,
Gözlər tab gətirmir, bu işgəncəyə,
Bəsdi, yara vurdun, qara gözünlə,
İndi baxışınla gəl məlhəm eylə.

Gözüm gəzir qızlar içində səni,
Sənin də gözlərin axtarır məni,
Mən səni tapıram, sən də ki, məni
Lakin, bacarmırıq baxışla hələ.

Tez üzünü çevirirsən o, yana,
Baxışlar çəkilir, bilməm hayana,
Utanırsan, naz edirsən miyana,
O, məlumdur bacarmayırsan hələ.

Baxırsan, bax, axıradək baxanda,
Gizlənmək nə lazım, çinar dalında,
Gözüm qalıb baxışının yolunda,
Bir baxışla gəl könlümü şad eylə.

1990-Yusifcanlı

## HƏLƏ MƏN

Dedilər, eşitdim sevmirsən məni,
Dedilər ki, unut məhəbbətini,
Demək tapdamısan eşq çəmənini,
Bizi qınamazmı o gül, o çəmən
O, çəməndən doymamışdım hələ mən.

Çox da ki, desinlər, sevməyirsən sən,
Mənim saf eşqimi rədd eləyirsən,
Bu ilk məhəbbəti unutmaram mən.
Bəs bizə nə deyər, eşidən, bilən
İstəmirəm, dilə düşüm, hələ mən.

Sən məni sevmirsən, mən ki, sevirəm,

Sən həsrət çəkmirsən, mən ki, çəkirəm,

Sənin həsrətini nəzmə çəkirəm,

Ürəyimi boşaldıram qələmnən,

İstəməzdim, şair olum hələ mən...

06 noyabr 1990 Yusifcanlı

# HƏLƏ SƏN

Bəs mənə nə deyər, dostlar, tanışlar?
Söylə görüm, bu işi kim bağışlar?
Dost qəmlənər, düşmən bunu alqışlar,
Məhəbbətin nə olduğun get öyrən,
Nabələdsən, böyük yolda hələ sən!

Həvəs nədi, məhəbbət nə get öyrən,
Səadət nə, hərislik nə get öyrən,
Səxavət nə, xəbislik nə get öyrən,
Bütün bunlar lazımdıki biləsən,
Nabələdsən, böyük yolda hələ sən!

Gözəl sima, heç gözəllik deyildir.

İncə bədən, heç incəlik deyildir.

Zərif tellər, heç zəriflik deyildir.

Gözəl insan, sən daxilən gözəlsən,

Nabələdsən, böyük yolda hələ sən!

06 noyabr 1990 Yusifcanlı

## ÜRƏK SEVİR

Kim dözərdi, bu həsrətə?
Bir ömürlük vüsalətə,
Bu taleyə, bu qismətə,
Mən dözmüşəm, hamı bilir,
Axı səni ürək sevir...

Gözləyirəm, gör nə vaxtdır,
Səni görməm, gör haçandır,
Qulaq səsdə, göz yoldadır,
Darıxansa, ürəyimdir,
Axı səni ürək sevir...

Hər gözəli ürək sevməz,
Saf qəlb fitnə, fəsad bilməz,
Səni görcək nitqim gəlməz,
Bu an, danışan ürəkdir,
Axı səni ürək sevir...

Səni görcək dinəmmirəm,
Çünki, qəlbi dinləyirəm,
Ürək nə deyir bilmirəm,
Onu sənin qəlbin bilir,
Axı səni ürək sevir...

Sən küssən də, mən küsmərəm,
Sən inci, mən incimərəm,
Sən atsan da mən sevərəm,
Bu sənə həvəs deyildir,
Axı səni ürək sevir...

Eşqibazlıq başqa şeydir,
Bu gün bir, sabah ikidir,
Gözəl gördün, sevgilindir,
Bu eşqibazlıq deyildir,
Axı səni ürək sevir...

Niyə atdın gözəl, məni?

Mən ki, atammıram səni,

Gərək, atmayaydın məni,

Sevib, atan naxələfdir,

Axı səni ürək sevir...

10 noyabr 1990 Yusifcanlı.

# DUYMADIN

Sən məni duymadın, niyə bilmirəm?
Arzular, duyğular puç oldu, niyə?
Bil, məni məhv etdin, sən bilə-bilə,
Sən məni duymadın, duya bilərdin...

Məni duymaq üçün saf qəlb lazımdı,
İncə zövq, həssaslıq, paklıq lazımdı,
Mənəvi gözəllik, saflıq lazımdı,
Sən bunu bilərdin, ancaq bilmədin...

Məni duymaq üçün, sevmək lazımdı,
İncə təbiətli, gözəl lazımdı,
Bir geniş ürəkli, sirdaş lazımdı,
Sən ola bilərdin, ola bilmədin...

Sən əzəllər mənim qəlbimcə idin,
Sonralar bilmədim, niyə dəyişdin?
Sən mənim sevgilim, ola bilərdin,
Ola bilərdinsə, ola bilmədin...

Ay gözəl, sən məni nədən duymadın?
Duymadın, duysan da, saya almadın,
Mənim ilk sevgimi, anlayammadın,
Anlaya bilərdin, ancaq bilmədin...

11 dekabr 1990 Yusifcanlı

## UNUDA BİLMİRƏM

Sən necə unutdun, anlayammıram,
Axı sevən bir kəs, unuda bilməz,
Bəlkə də unudar, mən bilməmişəm,
Ancaq, kim unutsa, demək o, sevməz!

Bəzisi sevgini əyləncə bilir,
Harda gözəl gördü, tez onu sevir,
Bu qoçaq zənn edir, artıq sevilir,
Ancaq o sevmir, sevilə bilməz!

Bunu sübut etmək , asandan asan,
Sabah bir başqasın görür,bu oğlan,
Yenisini sevir, köhnəni atan,
Bu sevgi deyildir, ola da bilməz!

Sən belə bilirsən, bu fikir yalnış,
Mən səni sevirəm, bu sənə tanış,
Sən öz eşqindən, sevgindən danış,
Sən məni sevmirsən, bu ola bilməz!

Sən necə unutdun, məni ay gözəl,
Sən ki, sevirdin məni lap əzəl,
Məndən yan gəzirsən, gül olub xəzəl,
Sənsiz güllər açmır, açıla bilməz!

Söylə, bilim unutmağın dilini,
Mən də birtəhər unudum səni,
Sən sevmirsən, mən sevməyin nə xeyri,
Birtərəfli məhəbbət ola bilməz.

Sən unutdun, mən unuda bilmərəm,

Bu əlimdən gəlmir, edə bilmərəm,

Mən sevmişəm, daha sevə bilmərəm,

Sən unut, Zaur unuda bilməz!!!

08 dekabr 1990 Yusifcanlı

## DƏYİŞMİSƏN

Bu gün baxışında başqa məna var,
Deyən şübhələrin ərşə çəkilib,
Qara gözlərində bir işartı var,
Xoş məram üzündə sözə çevrilib.

Bu günkü baxışın başqa söz deyir,
Bu baxışın deyir, inandım sənə,
Könül xanimanım artıq sənindi,
Bu gündən könlümü vermişəm sənə.

Mənim də eşqim çevrilib, inan
Məhəbbət oduna yanan məşələ.
Qəlbimi vermişəm, mən sənə çoxdan,
İndi inam ilə onu al ələ...

Bu gün üzün gülür, səbəbsiz deyil,
Məni görcək gizlənməyirsən, bu gün,
Əvvəl gizlənirdin, olmamış deyil,
Üzünü yana çevirməyirsən bu gün...

Məni görcək itirmirsən özünü,
Yanaqlar hallanır əvvəlki kimi,
Ancaq məndən çəkməyirsən gözünü,
Sən mənə baxırsan mən baxan kimi...

Xoş əhvalın üz-gözündən sezilir,
Əvvəlki deyilsən, dəyişilmisən.
Sənin hərəkətin məni çaşdırır,
Hə, yəqin eşqimi indi qəbul edirsən...

13 dekabr 1990  Yusifcanlı.

# BEŞİNCİ  BAHAR

Dörd bahar əvvəl görmüşdüm onu,
Hələ o, günlərdə seçmişdim onu,
Uşaqlıq hissiylə sevmişdim onu,
İndi o, günlərim arxada qalıb.

İlk görüş heç zaman çıxmaz yadımdan,
Anası yanında ötdü yanımdan,
Baxdım ona, mən boylandım, arxadan,
Uşaqlıq sevgisi damarda qalıb...

O görüş, o hisslər izsiz qalarmı?
Bu mənim sevgimin ilk baharıydı,
İlk bahar qəlbimdə tonqal qaladı,
Çərşənbə istisi qanımda qalıb...

İlk bahar özüylə sevinc gətirdi,
Könül sirdaşımı mənə yetirdi,
Əlbətdə bu dövr uşaqlıq idi,
Bu, həmən istəkdi canımda qalıb...

Bu, qismət bəlkə də ilahidənmiş,
Bəlkə də, o mənim taleyim imiş,
Nə isə bu bahar ilk gəliş imiş,
Hər bahar sözüylə yadımda qalıb...

İkinci bahar da güldü üzümə,
Baxışları tez-tez düşdü üzümə,
Hər gecə bir röya gəldi gözümə,
Sevgim iki bahar qəlbimdə qalıb...

Üçüncü baharda güllər açanda,

Çiçəklər aləmə ətir saçanda,

Mən öz qəlbimi ona açanda,

Onun hərəkəti yadımda qalıb...

Dördüncü bahar da atın səyirdib,

Artıq sözün deyib, xüdhafizləşib,

Sevginin hər üzün mənə göstərib,

Ağrısı, acısı arxada qalıb...

Düz dörd bahar görübdür eşqim,

Sevgim daim parlar, sönməzdir eşqim,

Sevgilim də deyir: - Sənə var eşqim,

Beşinci bahara görən nə qalıb???

21 fevral 1991 Yusifcanlı.

# SƏNİ RÖYADA GÖRDÜM

Gündüzlər fikrinlə yaşayıram mən,
Gecə də xəyalın getmir, gözümdən,
Ömrümə çökmüşdür çəkilməz bir çən,
Onun çəkilməyi sənə qalıbdır...

Hər gecə yuxuma gəlirsən nədən?
Gördüm ki, bu axşam bizə gəlmisən,
Mənnən deyib, gülüb şənlik edirsən,
Gizlən-qaç oynamaq bizə qalıbdı...

Qaçıb gizlənmisən, tapmıram səni,
Araya-araya qalmışam səni,
Nə qədər səsim var, səslədim səni,
Hövlank oyandım ki, ətrin qalıbdı...

21 fevral 1991. Yusifcanlı

# BƏZƏNMƏYİN YERSİZDİR

Hər gün yeni paltar geyinən gözəl,
Min bir büsatla bəzənən gözəl,
Gül elə güldür, xəzəl də xəzəl.
Bütün bunlar artıq işdir sevgilim...

Gözəlliyin zər-zibada deyildir,
Yeniləşən libasında deyildir,
Səni mənə gül cəmalın sevdirir,
Libas, zinət artıq işdir sevgilim...

Çalışmaki gündə bir don geyəsən,
Bər-bəzəkçün əl-ayaqdan gedəsən,
Gərək sevdin, həqiqətdə sevəsən,
Əsil sevmək başqa işdir, sevgilim...

Zinət də lazımdır, bəzək də gərək,
Lakin həddini aşmasın gərək,
Bir də sənə nə lazımdır bəzənmək?
Sən elə gözəlsən, nadir sevgilim...

Sən elə gözəlsən, bil yaranandan,
Sənə gözəlliyi verib yaradan,
Sözlərinə görə incimə yardan,
Düz sözün təsiri vardır sevgilim...

25 fevral 1991. Yusifcanlı.

## NƏ LAZIM?

Gül camalın Ay tək ışıq saçırsa,
Al yanağın ətrafa nur saçırsa,
Bal dodağın tər qönçə tək açırsa,
Yersiz zinət, artıq bəzək nə lazım?

Qara gözlər könlümü ovlayıbsa,
Kipriklərin məni oda salıbsa,
Qələm qaşlar huşu başdan alıbsa,
Yersiz zinət, artıq bəzək nə lazım?

Qara zülfün dağılıbsa kürəyə,
Bir aləmdir zülf dağıla sinəyə,
Bu görkəmdə bənzəyirsən mələyə,
Yersiz zinət, artıq bəzək nə lazım?

Yerişin incəsə, duruşun şuxsa,
Sözlərin incisə, dürrü tək safsa,
Baxışın yaraya məlhəm olursa,
Yersiz zinət, artıq bəzək nə lazım?

Zərif əllər hənasız da gözəlsə,
Barın açılmamış bir cüt qönçəsə,
İncə belin məni heyran edirsə,
Yersiz zinət, artıq bəzək nə lazım?

Ustac deyər, bir gözəlsən qənirsiz,
İlahi yaratmış səni bənzərsiz,
Sən elə gözəlsən binədən şəksiz,
Yersiz zinət, artıq bəzək nə lazım?

25 fevral 1991- Yusifcanlı

## TƏLƏSMİŞ BAHAR

Qış çoxdan əkilib, hava isnişib.
Mən elə bilirdim, daha bahardı,
Qara bəxtim bu sözümə irişib,
Söylədi, sus, gəlhagəl qabaqdadı.

Novruzgülü hələ çiçək açmamış,
Külək əsdi, boran oldu, qar yağdı...
Bənövşələr kol dibindən qalxmamış,
Bahar ömrün üstünü şaxta aldı.

Eşq günəşi hələ tamam doğmamış,
Aydın səma dönüb, buludlu oldu.
Düyməlonmiş o, qönçələr açmamış,
İqlim çöndü, onları şaxta vurdu...

Dörd baharın yola saldım, eşqimin,
Arzular var idi gələn baharda,
Hələ dadammamış tamın sevgimin,
Gör, nələr baş verdi yeni baharda...

Mən elə bilirdim, eşq yolu düzdü,
Sən demə, dərəsi, təpəsi varmış,
Mən elə bilirdim, bu yol enişdi,
Sən demə, enişin yoxuşu varmış...

Eşqi bənzədirdim, güclü bir çaya,
O, böyük dağları yarıb, keçərdi,
Sən demə, bu çaya bənd çəkilərmiş,
Çay bəndin əlindən fəğan eylədi...

Bütün bunlar mənə qaranlıq qalır,
Niyə, nə səbəbə bəs oldu belə?
O, məni sevirdi, mən də ki, onu,
Bəs niyə qar yağdı laləli çölə?

Bu, baharla eşqimin bənzəri vardı,
Havalar isnişdi, torpaq dincəldi.
Mart ayı girdi, çərşənbə yandı,
Hamı fikirləşdi, artıq bahardı...

Günəş doğdu, tək bircə gün, necə ki,
Mənim eşqim dördcə bahar parladı...
Beşinci bahardı... axı beş nəsdi,
Eşq çəmənzarına dümağ qar yağdı...

Odur, bir çölə bax, necə qar yağır...
Bax, bu yağan qar sevgimə yağır,
Hələ qovuşmamış sevən bir qəlbdə,
Bax, bu soyuq qar tonqal qalayır...

Ay aman, çölə bax, necə güclənir,
Təbiət elə bil hücuma keçir,
Bu qar gah dondurur, gah da isidir,
Neyləmək, hər şey yaradanın öz əlindədir...

Bir də eşq yolunda yoxuş olmasa,
Bu yolu getməyin nə mənası var?
Sevgi həsrətsiz qovuşmaqdırsa,
Daha sevməyin nə mənası var?

Qar yağır bahar ömrün bahar gününə
Deyirlər qar ilin bərəkətidir...
Qar yağır sevgimə, məhəbbətimə,
Bəlkə, ağ qar, eşqimə paklıq gətirir???

Qar yağır, qoy yağsın, eybi yox
Yağan qar qalmayıb, əriyəcəkdir.
Yalanlar, bəd əməllər, şübhələr
Bəlkə də bu qarla əriyəcəkdir...

Qar torpağın yorğanıdır, deyiblər
Bu qar da eşqimi qoruyur bəlkə
Yağan qar əriyib, su olacaqdır.
Sonu da aydınlıq olacaq bəlkə...

*     *     *

Qar dünən yağmışdı, artıq bir gündü,
O, qar da əriyib, heç nə qalmqyıb.
Torpaq cana gəldi,hava açıldı...
Daha boran, çəndən əsər qalmayıb.

Torpağa yağan qar çox tez əridi,
Eşqimə yağan qar buz bağlayıbdı...
Torpağa can verən, təzələndirən
Eşqimi sağalmaz yaralayıbdı...

Bəlkə bir də eşq günəşi doğacaq,
Ümid daha bəlkələrə qalıbdı...
Düymələnmiş, o qönçələr açacaq
Mənimki tək Yaradana qalıbdı...

08-25 mart 1991 Yusifcanlı

## GECİKMİŞ ETİRAF

Könlümü mən verdim sənə,
Sən də onu aldın ələ,
Bəs, eşqin nə verdi mənə?
Onu sən deyə bilmərsən...

Sənin eşqin mənə həsrət,
Qanıma hopmuş vüsalət,
Verdi mənə böyük bir dərd
Onu sən duya bilmərsən...

Ustac, bəsdir xiffət etdin,
Ömrünü eşqə həsr etdin,
Keçən ömrü bada verdin,
Sən bunu niyə bilmirsən???

09 aprel 1991 Yusifcanlı

# NƏ İSTƏYİM?

Mən vurğunam, qələm qaşa
Şux qamətin bir tamaşa,
Yanağında xallar qoşa,
Daha səndən nə istəyim?

Təkrarsızdı xətti-xalın
Al rəngi var, yanağının,
Qıvrım telin, qulac saçın,
Daha səndən nə istəyim?

Ustac deyər sözün düzün,
Nə əksilməz, öyməz özün,
İlham pərim qara gözün,
Daha səndən nə istəyim?

15 aprel 1991 Yusifcanlı

# BİR XƏBƏR

Neçə vaxtdı eldən ayrı düşmüşəm,
El-obamdan mənə xəbər göndərin...
Gör nə vaxtdı yardan hal bilməmişəm.
Cananımdan mənə xəbər göndərin!!!

Güldən ayrılalı, bülbül qan ağlar,
Eldən ayrılalı, gözüm saralar,
Yardan ayrılalı, qəlbim daralar,
Gülzarımdan mənə xəbər göndərin!!!

Eşq oduna alışıram, yanıram.
Həsrətinlə çırtaçıt qovruluram.
Eldəkilər, hali olun Zauram.
Sirdaşımdan mənə xəbər göndərin!!!

16 iyul 1991 Bakı.

## DARIXIRAM

Günlər ötür, neçə vaxtdı burdayam.
Elə bil ki, boğuluram, dardayam,
Nə bilirsən; nə var, nə yox, hardayam?
Sənsiz yaman darıxmışam, Güləndam...

Həsrətindi məni yaxıb, yandıran
Cəmalındı qəlbimi darıxdıran,
Vüsalətdi içimdə od qalayan,
Sənsiz yaman darıxmışam ,Güləndam...

Sən demə ki, aşiq uzaq yerdədi,
İnan, qəlbim həmişə səninlədi.
Sən hardasan, Zaur həmən yerdədi.
Sənsiz yaman darıxmışam, Güləndam...

20 iyul 1991  Bakı.

# GƏLSƏNƏ

Şükür Tanrıya, yaxşısan.
Eşitdim ki, sağalmısan,
Çoxdan ayağa qalxmısan.
Aşiqi də düşünsənə,
Bircə, bu yana gəlsənə...

İnsan hədər yaşamayır,
Həyatda hər qəza vardır,
Əsası can sağlığıdır.
Qəza ötdü, sevinsənə
Bircə, bu yana gəlsənə...

Qıvrımtellim fikir eləmə
Xəta yoxdur saf diləyə,
Mərəz də bənzər küləyə,
Əsib, dayanıb gülsənə
Bircə, bu yana gəlsənə...

Sən xəstəsən eşidəndə,

İnanmadım mən Cahidə

Bir üşütmə vardı məndə,

Bu günə şükür desənə

Bircə, bu yana gəlsənə...

Ustac deyər, Gün doğacaq,

Bulannıq su durulacaq,

İki sevən qovuşacaq,

Bu həqiqəti bilsənə,

Bircə, bu yana gəlsənə...

17 oktyabr 1991 Ağdam

Zaur USTAC

(Mustafayev Zaur Mustafa oğlu)

"İSTƏMƏZDİM, ŞAİR OLUM HƏLƏ MƏN..."

Elektron nəşr:

Texniki redaktor: Tunc AY

Rəssam və tərtibatçı: Gülü

Kitab "Yazarlar"-ın kompüter mərkəzində yığılıb.

Təşkilati dəstək: www.ustac.az *(Qeyri- kommersiya)*

*Elektron Kitab Zaur Ustac yaradıcılığının "30" illik yubley tədbirləri çərçivəsində nəşr olunan 2-ci kitabdır.*

*(Y-30-EK-02-ZU)*

Redaktə və bütün hüquqlar müəllifə məxsusdur.

Çapa imzalandı: 04. 04.2018.

Əlaqə: zauryazar@mail.ru

Pulsuz.

F/b: Zaur Ustac

Qeyd:

